# Milli Məclisin nümayəndə heyəti Kopenhagendə ikitərəfli görüşlər keçirib



Xəbər verildiyi kimi, Milli Məclisin deputatları - NATO Parlament Assambleyasında (NATO PA) nümayəndə heyətinin rəhbəri, parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov, nümayəndə heyətinin üzvləri, parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, Məlahət İbrahimqızı, Kamran Bayramov və Elşən Musayev NATO PA-nın 69-cu illik sessiyasında iştirak etmək məqsədilə oktyabrın 6-dan Danimarka Krallığının Kopenhagen şəhərində səfərdədirlər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarovanın tapşırığına əsasən, nümayəndə heyəti sessiya çərçivəsində bir sıra ölkələrin nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirib. Danimarka, İspaniya, Portuqaliya, Serbiya və Norveç nümayəndə heyətləri ilə ikitərəfli görüşlər zamanı parlamentlərarası əlaqələrin perspektivləri müzakirə edilib. Xüsusi olaraq Cənubi Qafqazda cərəyan edən hadisələr, hazırkı durum barədə onlar məlumatlandırılıblar. Həmin ölkələrin nümayəndə heyətlərinin işğaldan azad edilmiş ərazilərimizdəki son vəziyyət, Azərbaycanı tərk edən erməni sakinlərin aqibətinin necə olacağı barədə suallarına cavab olaraq bildirilib ki, erməni vətəndaşlar öz seçimlərinə uyğun, könüllü şəkildə Qarabağı tərk ediblər. Eyni zamanda Azərbaycan tərəfindən erməni sakinlər üçün hökumət tərəfindən reinteqrasiya proqramının hazırlandığı və təqdim olunduğu, ərazini tərk etmiş insanların geriqayıdışı üçün tam şəraitin yaradıldığı onların diqqətinə çatdırılıb.

Sessiya çərçivəsində nümayəndə heyətimizin Türkiyə nümayəndə heyəti ilə də görüşü olub. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Səfər oktyabrın 10-da başa çatacaq.

*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 10 oktyabr.- S.4.